ULUCHAY
Social-Economic Innovation Center

# SİYASİ İCMAL

Mart, 2014

No. 3, 2014

**Müəllif:**

**Sadiq Lətifov** – Baş Tədqiqatçı

**Arzu Hüseynova** – İctimai Maraqların Dəstəklənməsi üzrə Mütəxəssis

**Icmal:**

**Aqroturizm – kəndlərin əlavə gəlir mənbəyi** Siyasi İcmalı "Uluçay" Sosial-İqtisadi İnnovasiya Mərkəzinə Açıq Cəmiyyət Fondlarının Beyin Mərkəzi Fondu tərəfindən ayrılmış maliyyə dəstəyi ilə hazırlanmışdır.

*Açıq Cəmiyyət Fondları və Beyin Mərkəzi Fondu sənəddə qeyd olunan fikir və mövqeləri dəstəkləməyə bilər.*

**"Uluçay" Sosial-İqtisadi İnnovasiya Mərkəzi** 1995-ci ildən fəaliyyət göstərən qeyri-hökümət təşkilatıdır.

Təşkilatın **missiyası** Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dəstək verməkdir.

**Əlaqə:**

M.Ə. Rəsulzadə küçəsi 163A
AZ5500, Şəki
Azərbaycan
Tel/Fax: (+99424) 24 45447
office@uluchay.org
http://uluchay.org

## AQROTURİZM – Maneələr və İnkişaf Perspektivləri

### GİRİŞ

Ölkəmizin aqrar sektorunda çalışan insanlara əlavə gəlir mənbəyi təşkil etmək üçün dağlıq və dağətəyi rayonların kəndlərində aqroturizmin inkişaf etdirilməsi çox böyük əhəmiyyət kəsb edir. Artıq neçə illərdir ki, bir çox xarici ölkələrdə aqroturzim sürətlə inkişaf edir və əlavə gəlir mənbəyinə çevrilib. Bu turizm növündən ən çox istifadə edənlər isə maliyyə baxımından orta təbəqəni əhatə edən insanlardır.

Azərbaycanda aqroturizmi inkişaf etdirmək üçün münbit şərait çoxdur. Belə ki, ölkənin bir çox bölgələrində (şimal, cənub, şimal-qərb və s.) aqroturizmi inkişaf etdirmək üçün lazım coğrafi və iqlim şəraiti mövcuddur. Qeyd etdiyimiz bu regionlar uca dağlar, füsünkar meşələr, dağ çayları, sərin bulaqlar ilə hərtərəfli əhatə olunmuşdur. Təbiətlə bərabər, zəngin mətbəx də bu regionları daha da cəlbedici və əhəmiyyətli edir.

Aqroturizmi inkişaf etdirməklə, insanların səfalı kənd yerlərində nəinki istirahət etmələrini, eləcə də, təbiətlə birbaşa harmoniyasını təşkil etmək mümkündür. Yəni, bu məkanda insanların istirahəti flora və fauna ilə birbaşa təması deməkdir. Eyni zamanda, onların təmiz ekoloji qida qəbul etmələri, təmiz havada gəzmələri, səs-küylü həyatdan qısa müddətli də olsa təcrid olunmalarıdır.

Aqroturizmin ən üstün cəhətlərindən biri də ondan ibarətdir ki, bu sahədə qiymətlər əhalinin bütün təbəqələri üçün münasib və əlçatandır.

Aqroturizm sektorunun inkişaf etdirilməsində dövlətimiz və cəmiyyətimiz aşağıda qeyd olunan müsbət nəticələrə nail ola bilər:

- Bu sahəyə cəlb edilmiş kəndlərdə yeni iş yerləri açmaqla əlavə gəlir mənbəyi yaranır və bu da sosial gərginliyi azaldır,
- Respublikadaxili və xarici miqrasiyya prosesinin azalmasına stimul verər,
- Yeni ideyalar və baxışlar bu biznesin daha da, cəlbrdici və rentabelli edər,
- Dövlət büdcəsinə daxil olmalar artar,
- Gənclərin boş vaxtlarından daha səmərəli istifadəsinə imkanlar yaranar,
- Insanlarda sahibkar ruhu güclənər,
- Əhalinin yaşayış səviyyəsi artar və s.

Təbii olaraq bu sahənin inkişafı üçün, ilkin kapital, bilik və bacarığın artırılması lazımdır.

Təqdim etdiyimiz analitik sənədin məqsədi, regionda aqroturizmin inkişafı ilə bağlı problemləri təhlil etməklə, bu sahəyə cavabdeh qurumlara tövsiyyələr hazırlamaqdır.

Bu analitik sənədi hazırlamaqda aşağıdakı vəzifələr nəzərdə tutulub:

- Aqriturizmin inkişafına mənfi təsir edən problemlərin formullaşdırılması;
- Bu problemlərin həlli yollarının işlənməsi;
- Bu sahənin inkişaf etdirilməsi üçün tövsiyyələrin verilməsi.

## Mövcud vəziyyətin təhlili və Problemlərin göstərilməsi:

Rəsmi statistik məlumatlara görə, ölkəmizin şimal-qərb regionunun 72,4%-i kəndlərdə və 27,6%-i isə şəhərlərdə yaşayır. Bu regionun aqrar sektorunun iqtisadi təhlili göstərir ki, kəndlərimiz müxtəlif növ kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olsalar da, onların əksəriyyətinin əldə etdikləri gəlir, ailələrinin normal güzaranı üçün yetərli deyildir. Bu sektorda çalışan insanlar, əsasən dövlət tərəfindən verilən dotasiyalar hesabına vəziyyətdən çıxmağa çalışırlar. Yaşayış səviyyəsinin aşağı olması və iş yerlərinin azlığı, insanların (əsasən də gənclərin) böyük şəhərlərə və yaxın xaricə axın etməsinə səbəb olur. Bütün bunları nəzərə alaraq, aqrar sektorda çalışan insanlar üçün əlavə gəlir mənbələrinin tapılması yuxarıda qeyd edilən problemlərin qismən də olsa, həllinə müsbət təsir göstərə bilər. Bu baxımdan da, müxtəlif ölkələrdə həyata keçiriilən və müsbət nəticələr əldə edilməsinə səbəb olan aqroturizmin bizim ölkənin regionlarında da inkişaf etdirilməsi vacib sahələrdən biridir.

Aparılan araşdırmalar göstərir ki, regionlarda aqroturizmin inkişaf etdirilməsi üçün müxtəlif yanaşmalar mümkündür.

- Bunlardan biri ondan ibarətdir ki, bu sektorun inkişafını həmin bölgələrdə yaşayan insanlar heç bir dövlət dəstəyi olmadan inkişaf etdirsinlər. Əslində bu normal yanaşmadır, bir şərtlə ki, aqroturizmin inkişafı üçün münasib sayılan kəndlərdə infrastruktur (yol, qaz və işıq təminatı və s.) müasir tələblərə cavab versin. Əks halda, bu sahə rentabelli ola bilməz, belə ki, ayrı-ayrı fərdlərin bu problemi həll etmək imkanı mümkünsüzdür.

- Ikinci və ən real variant isə bir sahənin inkişafı üçün xüsusi, konkret məqsədli və istiqamətli dövlət proqramının işlənib hazırlanması və həyata keçirilməsidir. Belə ki, şəxsi insanların həll etmək imkanında olmadığı infrastruktur layihələr dövlətimizin inkanı daxilindədir.

Aqroturizmin hərtərəfli inkişafına dövlət dəstəyinin təmin edilməsi istiqamətində ehtiyac olarsa, bu sahədə əhəmiyyətli nəticələr əldə etmiş ölkələrin təcrübə və modellərindən də istifadə etmək olar. Məsələn, iqtisadi inkişaf tempinə görə Azərbaycandan qat-qat geridə qalan, Belarusda bu sahə yeni olsa da, artıq müəyyən uğurlar əldə edilməyə başlanıb. Bu ölkədə

aqroturizmlə məşğul olmaq istəyən insanlara dövlət tərəfindən 7 il müddətinə illik 7%-lə kredit, ucuz torpaq sahəsi  və lazımi texniki dəstək verilir. Qalmaq və istirahət etmək üçün normal şəraiti olan həmin evlərdə 1 nəfərin 1 gün qalmaq, yemək və digər əyləncələr də daxil olmaqla xərci, təqribən 20-24 manat arasındadır. Gələn turistlərin normal istirahəti üçün hər cür şərait yaradılıb. Bu biznes sahəsi inkişaf etdikcə rentabelliliyi artır. Ölkədə aqroturizmin inkişafı sayəsində  yeni iş yerləri açılmış və kəndlərdən işçi qüvvəsinin axınının qarşısı alınmışdır. Belə ki, bu ölkənin kəndlərində işsizlik 1,3% təşkil edir.

Qeyd etmək lazımdır ki, aqroturizm sektorunun inkişafı, regionlarda otel biznesinə rəqabət göstərməklə, əhalinin orta yaşayış səviyyəli təbəqəsinin bu sahəyə cəlb edilməsində önəmli rol oynaya bilər. Belə ki, Azərbaycanın regionlarında otel biznesinin sürətlə inkişaf etməsinə baxmayaraq, qiymətləri orta statistik maliyyə göstəricisinə malik olan insanlar üçün əlçatmazdır, eyni zamanda restoran xidmətləri də müştəriləərə baha başa gəlir. Restoran servis xidmətində tez hazır olan və baha qiymətə satılan yemək çeşidlərindən istifadə edilir. Bölgənin zəngin mətbəxinə daxil olan və ucuz başa gələn yemək çeşidlərinə isə üstünlük verilmir. Bu da öz növbəsində, ailənin büdcə xərclərini artırır.

Əgər otellərdəki qiymətlərə nəzər salsaq, görərik ki, bir nəfərin bir gecə qalmasının qiyməti 60-90 manat arasında dəyişir, əksəriyyətində səhər yeməyi ümumi qiymətə daxildir. 1 nəfərin günorta yeməyi təqribən 12-18 manat arasında dəyişir. Axşam yeməyi də həmçinin. Orta hesabla, 1 nəfərin yol xərcləri də daxil olmaqla rayonda qalması 1 gün üçün təqribən 100 – 140 manat arasında dəyişir.

Əgər hər hansı bir şəxs 4 nəfərdən ibarət ailəsi ilə rayona istirahətə gəlsə, bu rəqəm 4 nəfərlik  ailə üçün 1 gündə təqribən 230 – 280 manat arasında xərc deməkdir. Əgər bu ailə rayonda 3 gün qalsa, bu rəqəm təqribən 700-800 manat arasında vəsait tələb edir.

Türkiyə və qonşu Gürcüstanda bu göstəricilər ucuz olması ilə fərqləndiyi üçün istirahət etmək istəyində olan vətəndaşlarımızın böyük əksəriyyəti bu ölkələrə üz tutur və onların büdcələrinə əhəmiyyətli dərəcədə maliyyə dəstəyi verirlər.

Deməli, belə qənaətə gəlmək olar ki, bölgələrimizdə aqroturizmin güclü inkişafı nəticəsində digər ölkələrə gedən insanların axınını öz ölkəmizə qaytarmaqla, büdcəyə daxil olmaları artırmaq olar.

Bu baxımıdan, "Uluçay" SİİM aqroturizmin inkişafı üçün müvafiq dövlət qurumlarına qısa tövsiyələrini təqdim edir.

## TÖVSİYYƏLƏR

"Uluçay" Sosial-İqtisadi İnnovasiya Mərkəzi apardığı araşdırmalar nəticəsində belə qənaətə gəlib ki, ölkəmizin şimal-qərb regionunda aqroturizm üçün coğrafi baxımdan geniş imkanlar mövcud olsa da, bu sahə hələ də öz inkişafını tapmayıb. Aqroturizmin inkişafı üçün real imkanlara malik olan kəndlərdə müvafiq strukturu qurmaq üçün əlavə maliyyə yatırımını nəzərdə tutan Dövlət Proqramına ehtiyac vardır. Bu sahəyə dövlət tərəfindən dəstək göstəriləcək əsas istiqamətlərin aşağıda göstərilən sahələr üzrə verilməsi məqsədəuyğundur:

- Aqroturizmin inkişafı üçün məqsədli Dövlət Proqramı hazırlansın və tətbiqinə başlanılsın;
- Bu sahənin inkişaf etdirilməsi üçün müvafiq Qanun və sərəncamlar hazırlansın;
- Bu sahənin inkişaf etdirilməsi üçün kəndlərdə müvafiq evlərin seçilməsi və təmiri, bərpası və eləcə də, istehlak avadanlıqlarının alınması, məqsədli, uzunmüddətli və aşağı faizli kreditlərin verilməsi təmin edilsin;
- Bu sahə ilə məşğul olan insanlara müəyyən bir müddət üçün vergi güzəştləri tətbiq edilməsi nəzərdə tutulsun.
- Qeyd etdiyimiz məkanlarda insanların bilik və bacarıqlarının artırılması üçün maarifləndirilimə işləri aparılsın.

Bu sahənin inkişaf etdirilməsi əlavə gəlir gətirən bir biznes növü olmaqla yanaşı, həmin kəndlərin iqtisadi inkişafına hərtərəfli təsir edər və ölkəmizin əyalətlərinin tanınması baxımından da böyük əhəmiyyət daşıyar.

Bunun üçün ilk öncə ölkəmizin şimal-qərb bölgəsində yerləşən, tarixi abidələri, füsünkar təbiəti, şəffaf bulaqları olan kəndlərdə müvafiq infrastruktur yaradılmalıdır. Aparılan araşdırmalar göstərir ki, ölkəmizin şimal-qərb bölgəsində yerləşən aşağıdakı kəndlərdə aqroturizmin inkişafı iqtisadi baxımdan daha səmərəli və effektiv ola bilər:

**Şəki rayonu üzrə**: Kiş, Baş Küngüt, Biləcik kəndləri. **Oğuz rayonu üzrə:** Baş Daşağıl, Xal-Xal kəndləri. **Qax rayonu üzrə:** İlisu, Qaxbaşı kəndləri. **Zaqatala rayonu üzrə:** Car, Yuxarı Tala kəndləri. **Balakən rayonu üzrə:** Katex, Mahamalar kəndləri.

***Qeyd:***

Azərbaycanın şimal-qərb regionunda yerləşən və aqroturizmin inkişafı üçün müvafiq potensialı olan kəndlərimiz daha çoxdur və əksəriyyətində də, bənzər imkanlar və problemlər mövcuddur. "Uluçay" SİİM olaraq belə hesab edirik ki, yuxarıda adları çəkilən kəndlərdə aqroturizmin inkişafı ilə bağlı həyata keçirilən islahatlar uğurlu olduğu təqdirdə bu təcrübəni digər region və kəndlərdə də həyata keçirmək məqsədəuyğun olacaqdır və aqrar sektorun inkişafına hərtərəfli stimul verəcəkdir.